## ❖ Sosial hüquqlar nədir?

Sosial hüquqlar insanın ləyaqətli həyat şəraiti və sosial müdafiəsi ilə bağlı hüquqi təminatlardır. Dövlət insanlara ləyaqətli həyat şəraitini və işləmək imkanlarını təmin etməklə, həm də onlar əmək qabiliyyətini itirdikdə və digər sosial hadisə hallarında onların müdafiəsini təmin edir.

Sosial hüquqlar İnsan Hüquqlarının Ümumi Bəyannaməsində *(22-26-cı maddələr)*, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Paktda *(9-12-ci maddələr)* eləcə də, Avropa Sosial Xartiyasında öz əksini tapıb.

Sosial hüquqlar Azərbaycan Konstitusiyasında da geniş təsbit olunub.

Belə ki, Konstitusiyanın 38-ci maddəsi hər kəsin qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüquqlarını nəzərdə tutur. Konstitusiyanın 9 maddəsində *(34-43-cü maddələr)* vətəndaşların sosial hüquqları *(nikah hüququ, əmək hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşama hüququ, mədəniyyətin qorunması hüququ, sağlamlığın qorunması hüququ, təhsil hüququ, mənzil hüququ)* təsbit olunub. Hazırda Konstitusiya və beynəlxalq aktlarda təsbit olunan bu hüquqların həyata keçirilməsi 30-a yaxın qanunvericilik aktı ilə tənzimlənir.

## ❖ Sosial hüquqlar hansılardır?

**Sosial təminat hüququ:** Sosial təminat hüququ daha çox sosial sığorta ilə bağlı hüquqdur. Sosial sığorta qanunla nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır.

Sosial sığorta hadisəsinə pensiya yaşına çatmaq, əlil olmaq, ailə başçısını itirmək, əmək qabiliyyətini müvəqqəti itirmək, hamiləlik və doğum, uşağın anadan olması, uşağa qulluq, ölüm, sanatoriya-kurort müalicəsi zərurəti, işsiz olmaq kimi hallar aid edilir.

**Sağlam ətraf mühitdə yaşamaq hüququ**: Bu hüquq hər kəsin sağlam ətraf mühitdə yaşamaq, ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüquqlarını nəzərdə tutur. Bunlarla yanaşı heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. Bu hüquqa Konstitusiyanın 39-cu maddəsi ilə təminat verilir.

**Sağlamlığın qorunması hüququ:** Sağlamlığın qorunması hüququ xəstəliklərin səbəblərinin mümkün qədər aradan qaldırılması, sağlamlığın dəstəklənməsi və səhiyyə məsələlərində insanların məsuliyyətinin artırılması üçün məlumatlandırma və maarifləndirmə xidmətlərinin həyata keçirilməsi, həmçinin, epidemik, endemik və digər xəstəliklərin, həmçinin, bədbəxt hadisələrin mümkün qədər qarşısının alınması kimi məsələləri nəzərdə tutur.

**Tibbi-sosial yardım almaq hüququ:** Hər bir şəxs xəstələndikdə, əmək qabiliyyətini itirdikdə və digər hallarda tibbi-sosial yardım almaq hüququna malikdir. Vətəndaşlar tibbi sığorta sistemindəki tibb müəssisələrində qanunvericiliyə uyğun olaraq icbari tibbi sığorta əsasında tibbi yardımla təmin edilirlər.

Konstitusiyanın 41-ci maddəsində göstərilir ki, Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

**Əmək hüququ:** Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir. *(Konstitusiyanın 35-ci maddəsi).*

**Təhsil hüququ**: Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Konstitusiyanın 42-ci maddəsi ilə hər bir vətəndaşın təhsil almaq hüququna təminat verilir və Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

**Mənzil hüququ:** Hər kəs mülkiyyətçi, kirayəçi qismində və qanunvericiliklə nəzərdə tutulmuş digər əsaslarla yaşamaq üçün yaşayış sahəsini sərbəst seçmək hüququna malikdir. Heç kəs yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz və Dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil hüququnu gerçəkləşdirmək üçün xüsusi tədbirlər görür *(Konstitusiyanın 43-cü maddəsi).*

**Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin təminatı:** Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər müvəqqəti yaşayış sahəsi ilə təmin edilmə, məşğulluğun təmin edilməsi, sosial təminat, tibbi təminat,təhsil hüququnun təmin edilməsi, nəqliyyat və mənzil-kommunal güzəştləri, vergi güzəştləri kimi təminatlara malikdirlər. Məcburi köçkünlərə məskunlaşdıqları rayonlarda kənd təsərrüfatı ilə məşğul olmaları üçün dövlət proqramına uyğun olaraq dövlət və bələdiyyə torpaq fondu hesabına müvəqqəti olaraq torpaq sahələri ayrılır, onlara güzəştli kreditlər verilir, texniki və digər yardımlar göstərilir.

## ❖ Sosial hüquqları necə müdafiə etməli?

Konstitusiyanın 60-cı maddəsi hər kəsin dövlət orqanlarının, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəmə qaydasında şikayət verməsinə təminat verir.

Konstitusiyanın 61-ci maddəsi hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnu, qanunla nəzərdə tutulmuş hallarda, hüquqi yardımı ödənişsiz, dövlət hesabına almağı nəzərdə tutur.

Sosial hüquqların inzibati qaydada müdafiəsi "İnzibati icraat haqqında" qanunla müəyyən edililmiş qaydada inzibati orqanın və onun vəzifəli şəxsinin hüququ pozan hərəkətindən (hərəkətsizliyindən) və aktından həmin orqanın tabe olduğu yuxarı inzibati orqana şikayət vermək yolu ilə həyata keçirilir. Hüququ pozulan şəxs eyni zamanda yuxarı inzibati orqana şikayət verməklə yanaşı inzibati məhkəməyə də müraciət edə bilər.

Bununla yanaşı sosial hüquqların müdafiəsi bir sıra hallarda ümumi yurisdiksiyalı məhkəmələr *(rayon, şəhər məhkəmələri)* tərəfindən həyata keçirilir *(məsələn, əmək hüquqlarının pozulması, işdə bədbəxt hadisə nəticəsində sağlamlığa vurulan zərər, təhsil hüquqları, ailə və mənzil hüquqları ilə bağlı mübahisələr və s.).*
Sosial hüquqlar dövlət orqanları tərəfindən pozulduqda və onun bərpası yerli məhkəmələr tərəfindən mümkün olmadıqda, Avropa Məhkməsinə şikayət verilə bilər.

---

*Buklet Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və BMT İnkişaf Proqramı tərəfindən icra olunan "Həssas əhali qruplarının sosial-iqtisadi hüquqlarının təmin olunmasında vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi" layihəsi çərçivəsində həyata keçirilən "Azərbaycanda sosial hüquqlar və onun müdafiəsinin təkmilləşdirilməsi" layihəsi üzrə çap edilib.*

---

Buklet "Print Works" Çap Evində nəşr edilib.
Tiraj: 25000 nüsxə

European Union

HÜQUQ VƏ İNKİŞAF
İCTİMAİ BİRLİYİ

# SOSİAL HÜQUQLARINI BİL!

Hər kəs sosial rifah xidmətlərindən faydalanmaq hüququna malikdir




Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır (Konstitusiyanın 16-cı maddəsi)

Bakı - 2017